# Heydər Əliyevin dərsləri bizi diqqətli və daha məsuliyyətli olmağa səfərbər edirdi

**Görkəmli şair, dramaturq, nasir və publisist, ictimai və dövlət xadimi, Azərbaycan Respublikasının birinci dərəcəli dövlət müşaviri, fövqəladə və səlahiyyətli səfir, Əməkdar incəsənət xadimi Hidayət Orucovla müsahibə.**



IV SÖHBƏT

***– Hidayət müəllim, ötən söhbətimizdə Heydər Əliyevin Rusiya ilə münasibətləri yaxşılaşdırmasından və bununla şimal qapılarımızın təhlükəsizliyinin təmin olunmasından söhbət açdınız. Amma həmin illərdə Rusiya yenidən öz silahlı qüvvələrini Azərbaycana yerləşdirmək üçün Bakıya ciddi təzyiq göstərirdi. Heydər Əliyev buna necə reaksiya verirdi?***

– Çox maraqlı və vacib bir məsələyə toxundunuz. Çünki bu mövzu indi çox az-az gündəmə gəlir, amma çox mühüm bir məsələdir. Heydər Əliyev hakimiyyətə qayıdandan sonra da Rusiya uzun müddət öz iddialarından əl çəkmirdi və bütün vasitələrlə çalışırdı ki, heç olmasa sərhədlərin qorunması adı ilə öz hərbi hissələrini yenidən Azərbaycana yerləşdirsin. Heydər Əliyevin tarixi zəfəri onda oldu ki, buna imkan vermədi. Mən ilk günlərdən bu işlərin içində olmuşam və bilirəm ki, Rusiyanın o zamankı hakimiyyəti Heydər Əliyevə bununla bağlı hansı təzyiqləri göstərirdi. Elə mən deyərdim ki, Heydər Əliyevin Rusiya Federasiyasına rəsmi dövlət səfərinin 1997-ci ilə qədər uzanmasının əsas səbəblərindən biri məhz bu idi...

Etiraf etmək lazımdır ki, Xalq Cəbhəsinin Azərbaycan qarşısında yeganə xidməti Sovet – Rusiya ordu hissələrinin Azərbaycandan çıxarılması idi. Amma o da tarixin qızıl faktıdır ki, 1992-ci ilin avqust ayında Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin Rusiyanın Zaqafqaziya Sərhəd Dairəsinin Naxçıvandakı hərbi hissələrinin komandanlığı ilə apardığı danışıqlar nəticəsində 75-ci motoatıcı diviziya ləğv edilmişdi. Diviziyanın bütün hərbi və təsərrüfat əmlakının Azərbaycana verilməsi haqqında razılıq əldə olundu. Muxtar Respublikanın rəhbəri danışıqlar zamanı Azərbaycanın artıq tam müstəqil dövlət olduğunu və dünya ölkələri tərəfindən tanındığını bəyan etdi. Heydər Əliyev qəti şəkildə bildirmişdi ki, Azərbaycanın, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın ərazisində başqa dövlətin hərbi hissələrinin qalması artıq qeyri-mümkündür.

O zaman milli münasibətlər sahəsinə rəhbərlik etsəm də, bu məsələ də bilavasitə bu sahəyə ciddi şəkildə bağlı bir məsələ idi. Ona görə mən Rusiyanın bizimlə sərhəd olan regionuna, xüsusilə Dağıstana tez-tez səfər edirdim. Hətta Dağıstan–Azərbaycan münasibətlərinin yaxınlaşdırılmasındakı xidmətlərimə görə Məhəmmədəli Məhəmmədov məni Dağıstan Respublikasının fəxri fərmanı ilə təltif etmişdi. Prezident Heydər Əliyevin qarşıma qoyduğu tapşırıqların yerinə yetirilməsi ilə əlaqədar o qədər Gürcüstana səfərə gedib-gəlmişdim ki, Prezident Eduard Şevardnadzenin sərəncamı ilə Gürcüstan Respublikasının "Ləyaqət" ordeni ilə təltif olundum. Bu, Gürcüstanın ən yüksək mükafatlarından sayılır. Amma mən bütün bu mükafatları ulu öndər Heydər Əliyevin xidmətləri hesab edirəm. Çünki bütün bu respublikalarla bağlı həyata keçirilən siyasət Heydər Əliyevin zəkasının, siyasi düşüncəsinin, alternativi olmayan siyasətinin məhsulu idi, mən sadəcə onun göstərişlərini, tapşırıqlarını icra edirdim.

Rusiyanın o zamankı rəhbərliyi, xüsusi xidmət orqanları, Sərhəd Xidmətinin rəhbərliyi, ümumən Rusiyanın siyasi isteblişmenti təkid edirdilər ki, Rusiya sərhədçiləri Azərbaycanın sərhədlərinin qorunmasında iştirak etməlidirlər. 1997-ci ildə Ulu öndərin Rusiya Federasiyasına ilk səfəri oldu. Həmin səfər zamanı da Rusiya rəsmiləri bu məsələni yenidən qaldırdılar. Amma Heydər Əliyev buna çox sərt və birmənalı cavab verdi.

Bir dəfə də Prezident Heydər Əliyevin tapşırığı ilə Dağıstanın cənubunda Məhərrəmkənd rayonuna mənim başçılığım altında nümayəndə heyəti getdi və orada Rusiya Federal Əks-Kəşfiyyat Xidmətinin rəhbəri Sergey Stepaşinlə, Rusiyanın, Dağıstanın yüksək vəzifəli şəxsləri ilə görüşdüm. Bizim nümayəndə heyətinə Sərhəd Qoşunlarının komandanı Abbasəli Novruzov, Xarici İşlər nazirinin müavini Xələf Xələfov və hüquq-mühafizə orqanlarının rəhbərlərindən bir neçə nəfər daxil idi. O zaman Stepaşin Rusiya Federasiyasında birinci çeçen müharibəsi dövründə qanunsuz çeçen silahlı dəstələrinin tərksilah edilməsi əməliyyatını həyata keçirən qurumun rəhbərlərindən biri idi. Onların bəhanəsi bu idi ki, guya, dünyanın bəzi ölkələrindən gəlib çeçen qanunsuz silahlı dəstələrinə qoşulanlar Azərbaycan ərazisindən tranzit kimi istifadə edirlər. Hətta buradan, guya, silah daşınır.

Biz səfərə gedəndən bir gün əvvəl orada bir təxribat törədilmişdi. Dağıstan Şurasının üzvü, Dərbəndin başçısı Səid Qurbanovu girov götürmüşdülər. Biz Bakıdan çıxıb birbaşa ora yola düşdük. Şəhərə çatanda dedilər ki, Səid Qurbanovu azad ediblər. Onunla görüşəndən sonra təhlükəsizlik baxımından məsləhət oldu ki, biz Qusara qayıdıb ordan Məhərrəmkəndə görüşə gedək. Rəsmi görüş vaxtına 4 saat qalırdı...

Məhərrəmkənddə keçirilən görüşdə Stepaşin sərhəd məsələsini yenə qaldırdı və bildirdi ki, əgər biz sizin Sərhəd Xidməti ilə sərhədləri qorusaq, sizin də, bizim ölkənin də təhlükəsizliyini möhkəmləndirmiş olarıq və heç bir terrorçu ərazilərimizə sıza bilməz. Doğrusu, bunların belə inadkarcasına təkidindən daxilən qəzəbləndim və bir az əsəbi tonda dedim: "Axı bu məsələ Rusiya Federasiyası tərəfindən hər iki ölkənin rəsmi nümayəndələri, hətta ölkə prezidentləri səviyyəsində keçirilən görüşlərdə bir neçə dəfə qaldırılıb və dövlət rəhbəri, bizim nümayəndələr Rusiya tərəfinə bununla bağlı açıq, dəqiq və aydın cavab veriblər. İndi görüşdə bu məsələni qaldırmağın heç bir mənası yoxdur".

Sonra görüşdə iştirak edən hüquq-mühafizə orqanlarının rəhbərlərindən biri mənə dedi: "Hidayət müəllim, çox sərt cavab verdiniz..." Dedim: "Vəziyyət belə tələb edirdi. İkincisi də Prezident belə tapşırıq verib, bu da mənim ürəyimdən olan mövqe olduğu üçün arxayınca belə sərt cavab verdim. Biz rus ordusunu 200 ildən sonra güclə Azərbaycandan çıxarmışıq, indi yenə gəlsinlər?" Mənim bildiyim qədər, Məhərrəmkənd görüşündən sonra bu məsələ bir də qaldırılmadı. Hər halda, mənim bu haqda məlumatım olmadı...

Çox keçmədi ki, Stepaşin Şamil Basayevin silahlı dəstəsinin Stavropolun Budyonnovski rayon mərkəzində törətdiyi terror aktından sonra özünü günahkar hesab edib istefa verdi. Buna baxmayaraq, sonralar o, Rusiyada, hətta baş nazir də oldu, onunla bir çox görüşlərimiz oldu.

Amma sərhədlərin qorunması ilə bağlı Rusiyanın iddiasına Prezident Heydər Əliyevin 1997-ci il iyunun 2-dən 4-ə qədər Rusiya Federasiyasına ilk rəsmi səfəri zamanı imzalanmış dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə ilə nöqtə qoyuldu. Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində nəinki Rusiyanın, ümumiyyətlə, hər hansı digər dövlətin silahlı qüvvələrinin Azərbaycana yerləşdirilməsi müzakirə mövzusu olmadı.

***– Heydər Əliyevin hakimiyyətə qayıdışından əvvəl ölkədə dini məsələlər çox xaotik vəziyyətdə idi. Ulu öndər ölkəni yeni daxili qarşıdurmaya sürükləyə biləcək bu vəziyyətdən çıxarmaq üçün hansı tədbirləri gördü, konkret bu sahəyə nəzarət edən bir vəzifə adamı olaraq, sizin qarşınıza hansı vəzifələr və tapşırıqlar qoyurdu?***

– Çox doğru qeyd edirsiniz ki, 1992–1993-cü illərdə, hətta mən deyərdim, ondan bir az sonra da dini sahədə, həqiqətən, xaotik bir vəziyyət yaranmışdı və qorxulu, təhlükəli tendensiyalar sürətlə inkişaf etməkdə idi. Ölkəni artıq bu yolla fəlakətə sürükləməyə çalışmaqda maraqlı olan qüvvələr, xarici ölkələr var idi. Hətta deyərdim, din ölkədəki siyasi vəziyyətdən daha dağıdıcı bir faktora çevrilməkdə idi.

Bu da səbəbsiz deyildi. 1992-ci ildə regionda, ölkədə gedən prosesləri, tarixi şəraiti öyrənmədən, tələsik "Dini etiqad azadlığı haqqında Qanun" hazırlanmışdı və parlament onu qəbul etmişdi. Lakin bu, nəinki dini sahədəki xaosu aradan qaldırdı, əksinə, xarici vətəndaşlar, müxtəlif missioner təşkilatlar bu qanundakı boşluqlardan istifadə edərək öz niyyətlərini həyata keçirməyə başladılar. Ölkədə dini rirdi. İş o yerə çatmışdı ki, bəzi üzdəniraq adamlar özlərini peyğəmbər elan edir, insanları öz arxasınca aparmağa çalışırdılar. Qeyri-ənənəvi təriqətlərin nümayəndələri Azərbaycana ayaq açmışdılar və öz saxta inanclarını burada yaymağa, tərəfdarlar toplamağa çalışırdılar. Bunlar ərəb ölkələrindən, İrandan, elə qardaş Türkiyədən də axışıb gəlir və burada öz dayaqlarını yaratmağa başlayırdılar.

Qonşu İrandan gələn missionerlər Bakıda, Azərbaycanın ayrı-ayrı yerlərində sünni–şiə qarşıdurması yaratmağa cəhdlər edirdilər. Məsələn, mən Dini İşlər üzrə Dövlət Komitəsində işə başlayanda məlumat almışdım ki, Azərbaycanda 1500-ə yaxın adam İranın müvafiq strukturlarından maaş alır. "Maaşı" da bir cür adlandırırdılar. Hə, yadıma düşdü, "şəhriyyə". Hər adambaşına 150 manatdan tutmuş 1500 manata qədər pul verirmişlər.

Baxın, axı, Azərbaycan dünyada bəlkə də yeganə ölkədir ki, heç zaman dini qarşıdurma baş verməyib və burada yaşayanlar dinindən, etiqadından, təriqətindən, milliyyətindən asılı olmayaraq, daim dinc-yanaşı yaşamış və bir-birinə hörmətlə yanaşmışlar. Bu, Azərbaycanın ən üstün dəyərlərindən biridir. Amma bunu məhv etməyə, qarşıdurma yaratmağa çalışırdılar.

Bütün bunları mən yaxşı bilirəm, çünki 20 il milli siyasət məsələləri üzrə dövlət müşaviri, Dövlət Komitəsinin sədri vəzifələrində çalışanda bu problemləri araşdırır, onların həlli ilə bilavasitə məşğul olurdum.

Ulu öndərin dinə münasibəti birmənalı idi. Əvvəla, Heydər Əliyev özünü İslam hümməti, müsəlman sayır və bununla fəxr edirdi. Dini-islami dəyərlərə çox böyük ehtiramla yanaşır və hörmət edirdi. Amma hamı belə deyildi. Məsələn, o zaman Prezident Aparatında yüksək vəzifə tutan adam var idi ki, onun qardaşı doğmaları və sair yaxınları xristianlığı qəbul etmişdilər. Yaxşı yadımdadır, toplantıların birində Prezident Heydər Əliyev ad çəkməsə də, bir çoxlarımızın yaxşı tanıdığı belə adamlara kəskin münasibət bildirdi və dedi: "Adam öz dinini, inancını, adət-ənənəsini necə dəyişə bilər?"

Heydər Əliyev bu sahədə xüsusi təcrübəsi olan müdrik və uzaqgörən bir dövlət rəhbəri idi və ölkədəki dini münasibətlərdə mövcud problemlərin qarşısını almaq üçün insanlarla birgə özü bir çox dini mərasimlərdə, tədbirlərdə iştirak edirdi. Bu, təkcə onun inancından, dini etiqadından irəli gəlmirdi, Ulu öndər həm də həmin tədbirlərdə iştirak edən insanlara dövlətin rəsmi mövqeyini, din-dövlət münasibətlərinin hansı prinsiplərə söykəndiyini çatdırır, onların dövlətin adıçəkilən sahədəki siyasətinin nədən ibarət olduğunu dərk etmələrinə çalışırdı.

Məsələn, Heydər Əliyev hakimiyyətə qayıdışının elə ilk vaxtlarında iştirak etdiyi dini tədbirlərin birində özünün və dövlətin mövqeyini qısa və yığcam şəkildə belə ifadə etdi: "Biz azərbaycanlılar İslam dini ilə fəxr edərək, eyni zamanda, heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç bir başqa xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik. Ümumiyyətlə, başqa dinlərə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq İslam dəyərlərinin xüsusiyyətidir". Bu, artıq insanları dini ədavət yoluna istiqamətləndirməyə cəhd göstərən adamlara aydın mesaj idi. Çox keçmədi ki, Prezidentin təklifi ilə "Dini etiqad azadlığı haqqında" Qanununa ciddi dəyişikliklər edildi, bəzi maddələr ləğv olundu, müəyyən əlavələr edildi.

Həmin illərdə biz də dini konfessiyalarla çox sıx şəkildə işləyir, bu sferada cərəyan edən hadisələrə onların münasibətini öyrənir, eyni zamanda, müvafiq orqanlardan dini ekstremizmi yayan təşkilatlar haqqında müfəssəl məlumatlar alır və təbliğat-təşkilat işləri həyata keçirirdik. Məsələn, 1998-ci il oktyabrın 1 və 2-də Bakıda "Müasirlik və dini-mənəvi dəyərlər" adlı beynəlxalq konfrans keçirdik. Heydər Əliyev həmin konfransda tarixi nitq söylədi və dedi: "Dövlətimiz insanlara bütün azadlıqları vermiş və vicdan azadlığını, din azadlığını öz siyasətinin əsas hissəsi hesab etmişdir. Azərbaycan Respublikasının Konstitusiyası din və vicdan azadlığını təsbit etmiş, biz isə bir dövlət kimi bunun təmin olunmasının qarantıyıq. Bəli, ona görə də bizim dövlətimiz dünyəvi dövlətdir. Ancaq biz dindən ayrı deyilik". Bu bəyanat bütün dünyaya yayıldı və zamanla onun həqiqət olduğu çoxlarına aydın oldu.

Təbii ki, başqa işlər də görülürdü və Prezidentin tapşırığı ilə həyata keçirdiyimiz bütün tədbirlərin nəticələri, gördüyümüz işlər haqqında Ulu öndərə məruzə edir, ümumi vəziyyət barədə fikirlərimi çatdırırdım. Bir müddət sonra Prezident Heydər Əliyev Azərbaycanda fəaliyyətdə olan bütün dini qurumlara maliyyə yardımı göstərməyə haqqında sərəncam imzaladı. Dini abidələrin bərpası və təmiri ilə bağlı sərəncamlar imzaladı. Prezident göstərdi ki, Azərbaycan müsəlman dövləti olsa da, Qafqaz Müsəlmanları İdarəsi ilə yanaşı, ölkəmizdəki pravoslav, yəhudi, katolik və başqa dini icmalara da qayğı ilə yanaşır, çünki ölkədə həmin dinlərə etiqad göstərən Azərbaycan vətəndaşları var.

***– Yeri gəlmişkən, Alban dini icmasının Azərbaycanda müstəqil fəaliyyəti necə təmin edildi? Səhv etmirəmsə, bu dini icma uzun illər qriqoryan kilsəsinin tərkibində idi...***

– Elə söhbətimi o yerə gətirəcəkdim ki, məhz ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin simasında Azərbaycan dövlətinin dinlərə, konfessiyalara münasibəti Azərbaycandakı Alban dini icmasının müstəqil fəaliyyəti üçün bir zəmin oldu. Apardığımız təbliğat və təşviqat işləri nəticəsində Alban dini icması Qriqoryan dini icmasından tamamilə ayrıldı və müstəqil dini icma kimi fəaliyyətə başladı.

Əslində, bu çox ciddi və ağır bir məsələ idi. Çünki Qriqoryan kilsəsinin sahibləri Alban icmasını özünün bir qolu hesab edirdi. İctimaiyyətdə də belə bir fikir formalaşmışdı. Hətta Azərbaycanın Oğuz, Qəbələ bölgələrində yaşayan və alban dininə etiqad göstərən insanların bəziləri erməni separatizmi başlayanda Azərbaycanı tərk etmişdilər. Sonra vəziyyət normal ahəngə düşəndən, Azərbaycan dövlətinin albanlara münasibəti bəlli olandan onların əksər hissəsi geri qayıtdı.

Onu da deyim ki, Alban icması da tarixi ədalətsizlik səbəbindən Qriqoryan icmasına verilib. O zaman Alban kilsələrinin Qriqoryan kilsələrinə verilməsi haqqında Senatın qərarı olmayıb. Bu barədə yalnız dövlət razılaşması olub. Əlbəttə, Ulu öndər bu sahədə olan ədalətsizliyin aradan qaldırılması üçün təşəbbüs göstərdi və Alban icması müstəqil fəaliyyətə başladı. Bizim dövlət müşavirliyi də Heydər Əliyevin verdiyi tapşırıqlar əsasında bu sahədə çox işlər gördü.

Ayrılandan sonra ölkəmizdə yaşayan albanlar ayıldılar və başa düşdülər ki, bunların özünəməxsus dini ayinləri var, dinləri tam fərqlidir. Əlbəttə tarix belə idi. Ermənilər Qərbi Azərbaycana köçürülməmişdən çox-çox əvvəl Qafqaz Albaniyası mövcud olmuşdur, tarixləri çox qədim dövrlərə gedib çıxır, milli tərkibləri və dinləri də tam fərqlidir.

Məhz Heydər Əliyevin dini istiqamətdə müəyyənləşdirdiyi siyasi kurs bəlli olandan sonra respublikanın hüquq-mühafizə, inzibati orqanları, icra strukturları bu sahəyə daha diqqətlə yanaşmağa başladılar. Artıq 1990-cı illərin sonlarında Azərbaycanda dini münasibətlər təsəvvürolunmaz dərəcədə yaxşılaşdı.

Heç unutmaram, 1999-cu il noyabrın 16-da Prezident Heydər Əliyev ölkəmizdəki dini konfessiyaların başçılarını qəbul etdi. Mənim də iştirak etdiyim qəbulda Ulu öndər çox müdrikcəsinə dedi: "Məmnunam ki, ölkəmizdə, müstəqil Azərbaycanda müxtəlif millətlərə mənsub olan insanlar Azərbaycanın vətəndaşları olaraq sülh və əmin-amanlıq şəraitində yaşayır, bir-birinə hörmət bəsləyirlər. Bir dinin nümayəndələrinin digərinə, bir konfessiyanın başqasına hörmətsiz münasibət bəsləməsinə dair heç bir fakt yoxdur. Cəmiyyətlərimizdə çox mürəkkəb proseslərin getdiyi bir şəraitdə, Azərbaycanın Ermənistanla artıq 12 il müharibə vəziyyətində olduğu, 1988-ci ildə Dağlıq Qarabağ üstündə başlanmış münaqişənin respublikada sosial, siyasi vəziyyəti, o cümlədən, dini vəziyyəti son dərəcə mürəkkəbləşdirdiyi bir şəraitdə bunu ölkəmizin çox mühüm nailiyyəti hesab edirəm ". Çox maraqlıdır ki, həmin görüşdə Ulu öndər çox yığcam və konkret olaraq dünyada gedən proseslərə, islamofobiya ilə bağlı da münasibətini açıqlayaraq bildirdi ki, "son vaxtlar dünyanın müxtəlif regionlarında müsəlmanları ekstremist, təməlçi, tolerantlıq prinsiplərini tapdalayan insanlar kimi göstərməyə cəhdlər edilir. Bunu bəzi xristian ölkələrində edirlər. Amma bu, ədalətsizlikdir.

Şübhəsiz ki, hər bir xalqın içərisində, hər bir ölkədə quldurlar, terrorçular, cinayətkarlar, ekstremistlər var. Ancaq bunun xalqların dini kökləri, yaxud onların dini prinsipləri ilə heç bir əlaqəsi yoxdur".

Bu fikirləri eşidəndə əsl həqiqətdə Prezidentimizə heyran oldum ki, o belə bir görüşdə başqa dini konfessiyaların rəhbərlərinə əsl İslamın terrorizmlə heç bir əlaqəsinin olmadığı dərsini keçdi.

Yeri gəlmişkən, bu görüşdən 3 il əvvəl tolerantlıq günü ilə bağlı Prezident Heydər Əliyev mənə çox incə şəkildə unutqanlığımı, məlumatsızlığımı bildirməsini də sizə danışım. Bir gün Heydər Əliyevin köməkçisi mənə telefon açdı ki, Prezident sizi dəvət edir. Təbii qovluğumu, qeyd dəftərçəmi də götürüb qəbula getdim. Amma özlüyümdə ayırd edə bilmirdim ki, nə üçün məni dəvət edib.

Dedi: "Hidayət, yəqin bilirsən, Birləşmiş Millətlər Təşkilatının qurumu olan UNESCO 1995-ci ildə özünün qərarı ilə noyabrın 16-sı dünyada dözümlülük günü, sabitlik, tolerantlıq günü elan etmişdir. Bu günlə bağlı bir tədbir təşkil edin". Açığını deyim ki, bilmirdim və



buna görə çox pərt oldum. Özüm-özümə dedim: " Axı, bunu mən bilməliydim və Prezidentə məruzə etməliydim". Ondan sonra hər il noyabrın 16-da çox böyük tədbirlər, beynəlxalq dini elmi konfranslar keçirirdik. Yəni həmin hadisə artıq mənə dərs olmuşdu.

Sonra Prezident Heydər Əliyevin təşəbbüsü ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradıldı. Bu qurum haqqında ayrıca danışmaq lazımdır...

***– Heydər Əliyevin dinə, xüsusilə, İslama münasibəti, bu sahədə gördüyü işlər müsəlman aləmində hansı reaksiya doğurdu? Heydər Əliyevə qədər İslam ölkələri, bir-iki dövlət istisna olmaqla, Azərbaycanı beynəlxalq aləmdə elə də ciddi dəstəkləmirdi. Ulu öndər bu münasibəti necə dəyişə bildi?***

– Heydər Əliyevin müstəsna xidmətlərindən biri də İslam ölkələrini Azərbaycanla sıx şəkildə münasibətlər qurmağa, beynəlxalq plarformalarda ölkəmizin haqq işini dəstəkləyən ölkələr sırasında yer almasına nail olmasıdır. Əvvəla, bütün İslam dünyası Heydər Əliyevi hələ sovet dönəmindən yaxşı tanıyırdı və SSRİ-nin rəhbərliyində yüksək vəzifə tutmasından qürur duyur və bunu dilə gətirməkdən çəkinmirdilər. Çünki Heydər Əliyev SSRİ Nazirlər Sovetinin Sədrinin birinci müavini kimi bir çox müsəlman ölkələrinə imkanları çərçivəsində diqqət göstərirdi.

İkinci, İslam ölkələri Azərbaycan dövlətinin başına belə bir rəhbərin gəlməsini çox yüksək qarşıladılar və ölkəmizlə çox rahatlıqla münasibətlər qurmağa, iqtisadiyyatımıza yatırımlar etməyə başladılar. Amma ona qədər, Xalq Cəbhəsinin hakimiyyəti dövründə Azərbaycana ciddi müstəqil dövlət kimi yanaşmırdılar. Hətta bəzi türk dövlətləri belə Azərbaycanla isti münasibətlər qurmaqda maraqlı deyildilər.

Açıq demək lazımdır ki, AXC hakimiyyəti dövründə siyasət ümumi türkçülük deyildi, siyasət türkiyəçilik idi. Heydər Əliyev bunu aşdı və genişləndirdi. Artıq Heydər Əliyevin vaxtında siyasət qardaş Türkiyə ilə yanaşı, həm də türkçülüyə çevrildi.

(ardı var)

***İlqar RÜSTƏMOV,***
***Əməkdar jurnalist***
***XQ***